

Şöhlət Əfşar



## YAZDIRAN VAR

Sorursan, söyləyim - zarafat sanma,
Bəsirətin varsa, sən haqqı danma.
İstər inan mənə, istər inanma,
Şairə şeiri bir yazdıran var.

Bilən yox düsturun, nə də bəhrini,
Nə sirrin bilən var, nə də sehrini.
Sarayın görən yox, nə də şəhrini,
Şairə şeiri bir yazdıran var.

Nizami bilsəydi var nicat yeri,
Oğlu Məhəmmədə verərdi sirri.
O da Nizamitək yazardı şeri,
Şairə şeiri bir yazdıran var.

İlham yuxuların mən yozmuran ki,
Haqdan gələn sözü mən pozmuram ki,
Özümdə olmuram, mən yazmıram ki,
Şairə şeiri bir yazdıran var.

Gah sakit Arazam, gah dəli Kürəm,
Gah Məcnun oluram, gah da ki, Kərəm.
Qələm nə yazacaq, onu bilmirəm,
Şairə şeiri bir yazdıran var.

Hökm etsə, qələmi götürməlisən,
Ruhunu dərgaha yetirməlisən.
Gələn vəhyi yazıb bitirməlisən,
Şairə şeiri bir yazdıran var.

“Quran” gələrdimi, Tanrı deməsə?
Nazil olardımı, O, endirməsə?
Şöhlət nə yazardı, O göndərməsə?!
Şairə şeiri bir yazdıran var!

## DƏSTƏMAZ EDİN

Fərqi yox yuyunun necə, nə sayaq,
Öncə qəlbinizi dəstəmaz edin.
Məshsiz də olar həm baş, həm ayaq,
Öncə qəlbinizi dəstəmaz edin.

Süsləyin imanla ürəyinizi,
Xeyirə öyrədin öz dilinizi.
Saleh istəsəniz əməlinizi,
Öncə qəlbinizi dəstəmaz edin.

Şeytanı daşlayın işdə, əməldə,
Savab işlər görün obada, eldə.
Allahın adını zikr edib dildə,
Öncə qəlbinizi dəstəmaz edin.

Şöhlət səcdəndədir sənin Xudaya,
Bir Qədr gecəsi dəyər min aya.
Çatmaq istəsəniz siz Haqqı-saya,
Öncə qəlbinizi dəstəmaz edin.

## NƏDƏNDİR

Xudaya, nədəndir, haqq mizanında
Gecə ömrümüzü yarıya bölür?
Taleyi yazdığın alın yazında,
Eşq ölməz olsa da, aşiqlər ölür...

Hicran aramızda dönsə də dağa,
Ölənəcən həsrət bitmir, nə sirdir?
Yetsə də sevməyə, həm ayrılmağa,
Unutmağa ömür yetmir, nə sirdir?

Əzəl yaranışdan bu möcüzə nə?
Nədən vüsal ilə hicran qoşadır?
Yaraşmasalar da biri-birinə,
Budaqda gül ilə tikan qoşadır.

Nədəndir, kainat belə dəyişir?
Baharın var ikən, xəzan nə lazım?
Nədən ömrümüzə həm də qəm düşür?
Lütfün gözəl ikən, cəzan nə lazım?

Ərşin-kürşün əngin, belə sonsuzkən,
Dünya başımıza nədən dar olur?
Torpağın mayalı, suyun bol ikən,
Baxçada, çəməndə gül-çiçək solur.

Şöhlətəm, qulunam, ruhum təlaşda,
Xəyallar içində azıb qalmışam.
Ya Rəbb! Yalvarıram, məni bağışla,
Sanma ki, çaşmışam, asi olmuşam!